TARİX və ANTROPOLOGİYA

UOT 94 “19/...”
DOI: https://doi.org/10.30546/19063.2025.02.11087

# AZƏRBAYCANDA BÖYÜK BRİTANİYA MİSSİYASI (AZƏRBAYCAN CÜMHURİYYƏTİNİN MÜQƏDDƏRATINDA BÖYÜK BRİTANİYA AMİLİ)

**ƏHMƏDOVA FİRDOVSİYYƏ FİRDOVSİ QIZI**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının “Tarix” kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim*

*Azərbaycan Respublikası, Bakı ş., Səbail r., AZ 1001, Lermontov küç. 74*
*E-mail: fahmedova@rambler.ru*

## XÜLASƏ

Azərbaycan Cümhuriyyətinin Böyük Britaniya ilə münasibətlərinin yaranmasından xeyli əvvəl, Qafqaz, xüsusən Bakı ingilis siyasətində önəmli yer tutmuşdur. Geostrateji, geoiqtisadi səciyyəsi ilə Cənubi Qafqazın əhəmiyyəti ingilis sənədlərində ətraflı təsbit olunmuşdur. 1918-ci ilin yazından etibarən Bakıdakı vəziyyət haqqında ingilis kəşfiyyatının əhatəli məlumatları Britaniya missiyasının Qafqazda əməkdaşlıq edə biləcək siyasi qüvvələri müəyyənləşdirməyə yardım edirdi. Azərbaycan Cümhuriyyəti bəyan edildikdən sonra Bakı uğrunda türk-azərbaycanlı hissələrinin bolşeviklərlə mübarizəsi, ingilis - “Sentrokaspi” qüvvələri ilə müharibə müstəvisinə keçdi. Birinci Britaniya missiyası ilə Azərbaycan Cümhuriyyətinin əlaqələri Bakı məsələsində kəsişir. Bu zaman müttəfiq yox, əks cəbhələrdə dayanan dövlətlər olduğundan Danstervil missiyası Azərbaycan Cümhuriyyətinin siyasi tarixində, Azərbaycan-Böyük Britaniya əlaqələrində qeyri-məqbul səciyyələndirilir.

Azərbaycan Cümhuriyyəti tarixi Böyük Britaniya ilə sıx bağlıdır. Xüsusən ikinci missiya zamanı qarşılıqlı münasibətlər, bilavasitə Azərbaycan dövlətçiliyinə kömək edən, stabil fəaliyyətə imkan yaradan, qonşularla əlaqələrin tənzimlənməsinə yönəldilən tədbirlər və ən başlıcası respublikanın ərazi bütövlüyünün qorunmasında xidmətləri (Denikin təhlükəsinin dayandırılması, Qarabağ məsələsində general Tomsonun mövqeyi) Azərbaycanı Böyük Britaniya ilə birləşdirən tarixdir. Azərbaycan Cümhuriyyətinin Paris sülh konfransında tanınmasında da Böyük Britaniyanın xüsusi rolu var. Azərbaycan hökumətinin müttəfiq missiyası ilə əməkdaşlığı sənədlərdə öz təsdiqini tapır. Azərbaycandan Batuma, Britaniya komandanlığı üçün 450 min pud mazut, 150 min pud kerosin, 75 min pud benzin göndərilməsinə icazə istənilirdi. Bütün ticarət gəmiləri sahiblərinə qaytarılsa da, onlar üzərində ingilis nəzarəti qoyulurdu.

Britaniya hökuməti üç Cənubi Qafqaz respublikası arasında istər iqtisadi, istərsə də siyasi cəhətdən ən sıx münasibətin olmasının birbaşa onların mənafeyinə xidmət etdiyini vurğulayırdı. Böyük Britaniyaya bolşevik hökumətinə qarşı dura biləcək güclü Qafqaz lazım idi. Britaniyanın Qafqazda güclü federasiya yaratmaq istəyi ilə Azərbaycan hökumətinin mövqeyi üst-üstə düşürdü.

**Açar sözlər:** *Qafqaz, Böyük Britaniya, Azərbaycan, ingilis kəşfiyyatı, Tomson, Mak Donell.*

Rusiya imperiyası tərkibində olan Qafqaz regionunun Böyük Britaniya siyasətinin planlarında yer tutması Birinci Dünya müharibəsi dövründə daha aktual məzmun daşımağa başladı. Böyük Britaniya üçün ənənəvi xarici siyasət kursu dövlət mənafeyi çərçivəsində həssas məqsədyönlü mövqe nümayiş etdirmək olmuşdur. Monarxiya rejimi devrildikdən sonra Rusiyaya olan münasibət, imperiyalararası mübarizə səviyyəsindən yeni müstəviyə keçir. Rusiyada siyasi-iqtisadi mahiyyətilə yeni quruluşun yaradılması və bu sistemin mövcud siyasi rejimlər tərəfindən qeyri-məqbul bilinməsi müharibənin son mərhələsi üçün beynəlxalq münasibətlərə yeni məzmun verdi. Antanta blokunda müttəfiqlərarası köklü parçalanma baş verdi. Sovet Rusiyasının müharibədən çıxması, Böyük Britaniya və Fransanın sovet hakimiyyətinə kəskin reaksiyası nəticəsiz qalmadı. 1917-ci il dekabrın 23-də Böyük Britaniya ilə Fransa arasında bağlanmış məxfi konvensiyaya görə, keçmiş Rusiya imperiyası ərazisindən müttəfiqlər ərazi bölgüsü aparmış, Qafqaz da ingilis nüfuz sahəsinə aid edilmişdi.

Azərbaycan Cümhuriyyətinin Böyük Britaniya ilə münasibətlərinin yaranmasından xeyli əvvəl, Qafqaz, xüsusən Bakı ingilis siyasətində önəmli yer tutmuşdur. Geostrateji, geoiqtisadi səciyyəsi ilə Cənubi Qafqazın əhəmiyyəti ingilis sənədlərində ətraflı təsbit olunmuşdur [1]. Təbii yolları, dəmir

yolları, Xəzər hövzəsi Avropanı Asiyaya qovuşdurmağı həm ticari, həm də hərbi baxımdan təmin edə bilərdi. Digər bir mühüm amil isə Bakının zəngin neft ehtiyatları idi. Belə bir bölgənin Rusiya üçün əhəmiyyəti hədsiz idi. Bakı neftindən məhrum olardısa Rusiyanın iqtisadiyyatı iflic vəziyyətinə düşə bilərdi. Bu prinsipial məsələni İ.Stalin daha açıq ifadə etmişdi: "Qafqazın inqilab üçün mühüm əhəmiyyəti onun yalnız xammal, yanacaq, ərzaq mənbəyi olması ilə deyil, həm də Avropa və Asiya, xüsusilə Rusiya və Türkiyə arasındakı mövqeyi və mühüm iqtisadi və strateji yollara (Batum-Bakı, Batum-Təbriz, Batum-Təbriz-Ərzurum) malikliyi ilə müəyyən olunur... Qafqazda, nəhayət kim möhkəmlənəcək, kim neftdən və Asiyanın dərinliyinə aparan ən mühüm yollardan istifadə edəcək, inqilab yoxsa Antanta - bütün məsələ bundadır" [2]. Sovet Rusiyası ilə keçmiş müttəfiqlər arasında mübarizənin sırf geostrateji marağa söykənən mahiyyətdə etirafı təbii ki, tərəflərin geniş rəsmi bəyanatları formasında deyil, əsasən ideoloji məzmunda həyata keçirilirdi. "Dünya zəhmətkeşlərinin hakimiyyətini bərqərar etmək" prinsipi artıq Rusiya inqilabının coğrafiyasını dövlət sərhədlərinin fövqündə görürdü. Bu baxımdan polkovnik Keyesin "bolşevik inqilabı Rusiyanın daxili işi deyildir. "Bütün ölkələrin proletarları birləşin" onların şüarıdır və müəssislər məclisini qovduqları andan (bolşeviklər - F.Ə.) əsas məqsədlərinin dünyanın bütün ölkələrində inqilab etmək olduğunu gizlətmədilər" fikri [3] səciyyəvidir. 1921-ci il avqustun 10-da "Bolşevizm və Rusiyanın cənubunda anti-bolşevik qüvvələrə Böyük Britaniyanın köməyi" mövzusunda oxuduğu mühazirədə Keyes Böyük Britaniyanın "Rusiyanın daxili işlərinə qarışmaq" "zəruriliyini" əsaslandırmaq vəzifəsindən çıxış edirdi[4].

Azərbaycan Cümhuriyyəti ərəfəsində və dövründə Böyük Britaniya amilini Rusiyanın və Böyük Britaniyanın Şərq - "Asiya siyasəti" kontekstində araşdırmaq lazımdır. Sovet Rusiyasının Şərq siyasətinə nəinki önəm verməsi, "Şərq siyasətini rəsmi olaraq qəbul etməsi" Böyük Britaniyanın xarici siyasətində Şərqə olan ənənəvi həssaslıq ilə sıx bağlı idi: Rusiyanın mövqeyi ingilis mütəfəkkiri Bertran Rasselin təhlilində sırf siyasi məzmun daşıyır: "Rusiya hökuməti Asiya siyasətini eyni vaxtda, həm Britaniya imperiyasına qarşı çıxmaq, həm də Britaniya hökumətini sülhə yönəltmək /vadar etmək/ vasitəsi kimi qəbul etdi"[5]. "Bolşevizmi bütün dünya və xüsusən də Hindistan (ingilislər - F.Ə.) üçün böyük təhlükə hesab edən [6] Britaniya həm də türkalman qoşunlarının irəliləməsindən, türk ordusunun İran, Qafqaz, Türküstan istiqamətində hæmləsindən bərk ehtiyat edirdi. Rusiya ixracatının dayandığı bir vaxtda, şərqdə, o cümlədən İranda ticarəti tamamilə öz əlində saxlamaq istəyirdi.

Bundan əlavə, nəzərdə tutulurdu ki, İranda Britaniyapərəst hökuməti dəstəkləyə bilmək üçün, əhali arasında ingilislərə rəğbət yaradılsın, əks təqdirdə anti-ingilis əhvallı əhali Britaniyapərəst hökuməti asanlıqla devirə bilərdi [7]. İran ərazisindən rus qoşunlarının çıxarılması prosesi də Britaniyanın xarici siyasətində diqqət mərkəzində olmuşdur. Rus qoşunları barədə müfəssəl məlumata malik ingilis kəşfiyyatı hələ 1917-ci ilin sonunda L.Biçeraxovun 1.070 nəfərlik sayda göstərilən hissəsinə xüsusi əhəmiyyət vermişdi. Qafqaza göndərilmək üçün ingilis hərbi hissəsinin təşkili məsələsi hələlik İrandakı rus hərbçilərindən istifadəni ehtiyat variantı kimi saxlayırdı.

Cənubi Qafqaz komissarlığının yaradılması prosesində ABŞ, Fransa nümayəndələri ilə yanaşı ingilis nümayəndəsi də iştirak etmişdir[8]. İngiltərə, Fransa, İtaliya hökumətlərinin mövqeyindən fərqli olaraq ABŞ hökuməti "Rusiyadakı hadisələr aydınlaşmayınca Transqafqaz hökumətini tanımaq" istəmədi[9]. Böyük Britaniya hökuməti nəzərdə tutulan Qafqaz Federasiyası ilə bağlı geniş strateji plan düşünmüşdü. Britaniyanın İran körfəzində siyasi rezidenti 1917-ci il 23 dekabr məlumatında bildirirdi ki, Böyük Britaniya hökuməti ehtimal olunan Qafqaz Federasiyasını bütünlüklə dəstəkləməyi qərara almışdır [1]. Məsələnin siyasi və maliyyə tərəfi müzakirə olunurdu. Birinci və ən əsas problem kimi gürcülərin, azərbaycanlıların, ermənilərin və dağlıların qəbul etdikləri mərkəzləşdirilmiş rəhbərlik yaratmaq nəzərdə tutulmuşdu. Belə bir quruma Britaniyanın yardımı bir sıra vəzifələrlə şərtlənirdi: alman təbliğatı ilə mübarizə, ərzaq paylaşdırılması, Qafqazın müəyyən mallarla təchizatı, Bakı neftinə sahib olmaq. Bu missiyanı həyata keçirmək üçün isə Qafqazda 1000 nəfərədək hərbi dəstənin kifayət edəcəyi güman edilirdi. Üstəlik Qafqaz xalqlarının siyasi-psixoloji oriyentasiyası da diqqətə alınırdı: azərbaycanlılar da daxil olmaqla Mesopotamiya və Hindistan müsəlmanlarının Türkiyə və İranda almanmeylli qüvvələrə qarşı çıxmasına nail olmaq. Bu siyasəti reallaşdırmaqla azərbaycanlılarla ermə-

nilər arasında barışığın mümkünlüyü də istisna edilmirdi. Qeyd edim ki, azərbaycanlı-erməni problemini ingilislər bölgədə rastlaşacaqları ən çətin problem hesab edirdilər [11]. Zəncirvari plan bağlantısında Qafqaz müsəlmanlarının seçimi, Azərbaycan əyalətlərini Qafqaz federasiyasına qoşulmaq və İrandan üz döndərməsi ehtimalı ilə İran məsələsini həll etmək istəyirdilər. Bu məqsədlə hərbi və maliyyə yardımı zəruri bilinirdi.

Qafqaz federasiyasına yardım vədi planda nəzərdə tutulan xalqlararası barışıq əvəzinə, təfriqəyə səbəb oldu. Belə ki, Britaniya hökumətindən yardım almaq üçün Tehrana göndərilən Cənubi Qafqaz nümayəndə heyətinə maliyyə yardımı vəd edilmiş və sərhədlərin Antanta düşmənlərindən müdafiəsinə səy göstəriləcəyi bildirilmişdi. Qafqaz cəbhəsində "erməni və başqa qoşunlara" yardım haqqında danışıqlarda işlədilən erməni sözü cəbhənin bütün qoşunlarını ehtiva etsə də, ermənilər ingilislərin vədini düzgün ifadə etməmiş, özlərini öyərək, ingilislərin Cənubi Qafqazın bütün xalqlarına deyil, yalnız onlar üçün yardım nəzərdə tutduğunu təbliğ edirdilər. Nəticə sonrakı proseslərə zərərli təsirlə müşayiət olundu. Bütün səylərinə baxmayaraq Qafqazdakı Britaniya rəsmiləri gürcülərdə və azərbaycanlılarda formalaşmış "yanlış rəyi" tamam aradan qaldırmağa nail ola bilmədilər [12].

Azərbaycan, Qafqaz ingilis nüfuzuna aid edilsə və Qafqazdakı "milli-azadlıq hərəkatına" yardım edilməsi nəzərdə tutulsa da ingilislər bəhs edilən əraziyə qoşun çıxartmağa ehtiyat edir, "islam dövlətinə qarşı açıq təcavüz" kimi qiymətləndiriləcəyindən narahatlıq keçirirdilər [13]. Üstəlik, "Mesopotamiyadan Bakıya qədər ərazilərin coğrafi şəraitinə hələ yaxşı bələd deyildilər" [14]. Elə bu baxımdan diplomatik və iqtisadi xidmət göstərənlərdən əlavə Britaniya xüsusi xidmət işçiləri bölgədə müvafiq missiya yerinə yetirirdi [15]. Şərq üzrə ixtisaslaşmış Mak-Donell, Stoks, Qoldemit, Noel, Payk, Klaterbek, Ueyn və başqalarının fəaliyyəti Britaniya hökumətinin Şərq, Qafqaz siyasətini formalaşdırmağa xidmət edirdi.

Britaniya kəşfiyyatçılarının önəm verdiyi və hökumətə tövsiyə etdikləri məsələ müsəlman əhalisinin əhvali-ruhiyyəsini nəzərə almaq olmuşdur, bu məsələlərin əhəmiyyətsiz sayılmasını Hindistan və Mesopotamiyada Britaniyanın yeritdiyi siyasətlə uyğun gəlmədiyini qeyd edirdilər. "Hindistanı daim Britaniya imperiyasının Axilles dabanı hesab edən" bolşeviklərin psixoloji silahdan qeyri-adi məharətlə istifadə edəcəklərində ingilislər Şərqdə özləri üçün təhlükə görürdülər. Britaniya nüfuzuna daxil edilən Qafqazla Rusiyanın cənubunda Könüllü ordunun nəzarətində olan kazak torpaqları, yəni Cənub-Şərqi konfederasiya arasında əlaqə yaratmaq istəyirdilər. Məqsəd həm də Almaniyanın Asiyaya ikitərəfli müdaxiləsinin qarşısını almaq idi: türk ordusunun artıq irəlilədiyi Qafqazda və kazak torpaqlarında. Kazak ərazilərinin nümayəndələri ilə Azərbaycan, Gürcüstan, Krım, dağlı tayfaları nümayəndələrinin görüşləri, Noelin Petroqrad-Bakı-Yekaterinodor-Tehran səfərləri, bu məsələ ətrafında Bağdad-Dehli-London yazışmaları bolşeviklər əleyhinə Britaniya hərbi müdaxiləsini şərtləndirirdi. Petroqraddakı Britaniya səfirliyinin, almanların barışıq şərtləri barədə müntəzəm məlumatları və məxfi agentlərə konkret göstərişləri, Tehranda və Tiflisdəki ingilis hərbi missiyaları arasında razılaşdırılmış hərəkət xidməti Könüllü ordu ilə münasibətlərlə yanaşı, Qafqaz-Xəzər hövzəsi siyasətinə istiqamət verirdi.

1917-ci ilin payızından etibarən Birinci Dünya müharibəsinin gedişatında köklü dəyişikliklər, Rusiyada cərəyan edən hadisələr müharibənin dördüncü ilində qüvvələri tükənən tərəfləri yeni mübarizə qarşısında qoydu. Bu dövrü polkovnik Keyes "Böyük müharibənin ikinci və ən təhlükəli fazası" kimi səciyyələndirmişdi [16]. İngilislərin bolşeviklərlə və alman bloku ilə Şərqdə toqquşan maraqlarından konkret təxirəsalınmaz vəzifələr yaranmışdı: Bakı neft mədənlərinin almanların əlinə keçməsinə yol verməmək, türklərə qarşı dura biləcək ordu təşkil etmək.

Almanlar tərəfdən Azərbaycana birbaşa təhlükə görməyən ingilislər rus ordusunun buraxılmasından sonra türklərə qarşı erməni, gürcü və ruslardan ordu təşkil etmək istəyirdilər. Tiflisdə Britaniya hərbi missiyası polkovnik Paykın komandanlığı altında bu təşəbbüsə nəzarət və yardım edir, maliyyələşdirirdi. Mesopotamiyada 350 Britaniya zabitini Bakı vasitəsilə Qafqaz cəbhəsinə göndərmək nəzərdə tutulmuşdu ki, oradakı ordunu təşkil etsinlər. Nəhayət general Danstervilə "Bağdad-Bakı-Buxara istiqamətində hərəkətə keçmək əmri verildi" [17]. 1918-ci ilin yanvarında kiçik heyətlə Bağdaddan çıxan Danstervil yalnız avqustda Bakıya daxil ola bildi. Ənzəliyə qədər sürətlə irəliləyə bildi. Artıq fevralın ortalarında Qəzvinə çatan Danstervil xəbər verirdi ki, Həmədan-Ənzəli yolu bolşevik əhvali-ruhiyyəli əsgərlərlə

doludur. Danstervil Ənzəli inqilab komitəsinin 3 iclasında iştirak edərək, onların qafqazlılara düşmən münasibətini, ingilis missiyasının məqsədini başa düşdüklərini görüb, həbs və axtarış qorxusu altında bütün kağızlarını yandıraraq məhv etmişdi. Hətta "Qafqaz hökumətinin dəvəti ilə Tiflisə getdikləri" izahatı belə, Danstervilə qarşı çıxan cəngəlilərin qəzəbini sakitləşdirə bilmədi.

Sovet tarixşünaslığında antiimperialist, milli-azadlıq hərəkatı kimi səciyyələndirilən cəngəlilər hərakatı ingilis sənədlərində və tarixşünaslığında ekstremist, terrorist kimi hallandırılmışdır. Rastlaşdığı mürəkkəb şərait Danstervili Londona Rusiyada vəziyyətin son dərəcə gərgin olduğu barədə məlumat verməyə məcbur etdi.

Danstervil missiyasının Britaniya hökuməti üçün nə dərəcədə əhəmiyyətli olduğu Londonun çevik və narahat mövqeyində nəzərə çarpır. Bakı, Qafqaz yaxud Ənzəli sırasında Bakıdakı vəziyyətin xüsusi təhlilinə ehtiyac duyulur. Həmədan-Ənzəli yolunun açıq qalması ilə yanaşı, dəmir yolundan başqa Qafqaza Zəncan və Təbriz vasitəsilə çatmağın mümkünlüyü də müzakirə olunurdu. Qafqazda isə hadisələr tempinə, siyasi məzmun rəngarəngliyinə görə mürəkkəb şərait yaratmışdı. Qafqaz-Rusiya, Qafqaz-Britaniya, Qafqaz-Alman-türk bloku və Qafqazdaxili qurumlar müstəvisində mübarizə gedirdi. Artıq Rusiyada Müəssislər məclisi qovulmuş, Cənubi Qafqaz Seymi yaradılmış, Şamxor stansiyasında rus qoşunları ilə qanlı qarşıdurma ilə nəticələnən tərksilah həyata keçirilmiş və Bakı, Qafqazın siyasi müqəddəratına təsir edəcək həlledici seçim ərəfəsində idi.

Ənzəlinin tamamilə bolşevik nəzarətində olması Bakıda sovet hakimiyyətinin elanına aparan yolun mühüm amillərindən sayıla bilər. Britaniya qoşununun Bakıya yolunu əngəlləyən amil eyni zamanda türk qoşunlarına qarşı çıxan siyasi qüvvələrin müttəfiqlik məzmununu müəyyənləşdirmək imkanı verdi. Müsavat, bolşevik, daşnak, eser, menşevik palitrasında Britaniya hərbi gücünün reallığı vəziyyətin bir neçə dəyişmə variantını mümkün edə bilərdi. Britaniyanın Qafqazda ikinci missiyası gerçək təcrübə kimi nəzərə alınsa belə, ən az proqnozlaşdırıla biləcək bolşevik iqtidarı variantı sayılmalıdır. Proqnozlaşdırılmayacağı birmənalı qəbul edilə bilən bolşevik-ingilis əməkdaşlığını isə 1918-ci ilin yayında ingilis təşəbbüsü və bolşevik "prinsipiallığı" sual altında qoyur. Nəzərə alaq ki, Brest-Litovsk sülhündən sonra Almaniya ilə müharibə aparmaq üçün Britaniya Rusiyaya pul, silah, təlimatçılar vəd etməklə yardım təklif edirdi [18].

Böyük Britaniyanın ilk baxışda təzadlı görünən bu mövqeyinə baş nazir Lloyd Corc belə açıqlama vermişdi: "Biz antibolşevik kampaniyasını deyil, antialman cəbhəsini təşkil etdik və maliyyələşdirdik. Əgər almanlar Bakıya soxul-saydılar və bu rayonun tükənməz neft ehtiyatlarını... ələ keçirsəydilər, müharibə sonsuzadək davam edərdi". Bu baxımdan ingilislərin Şaumyanla, bolşevik hökuməti ilə əməkdaşlıq üçün təkidli səyləri anlaşılır. Türk qoşunlarını Bakının neft mədənlərindən uzaqda saxlamaq üçün ingilislər türklərə qarşı müharibəyə hazırlaşan bolşeviklərlə iş birliyinə can atırdılar. Bakının müdafiəsi üçün ingilis yardımını qəbul etmək məsələsi Bakı bolşevik hökumətində kəskin fərqli fikir ayrılığı yaratmışdı. Danstervilin Bakıya buraxılmaması mövqeyində qalan Şaumyan belə ingilis köməyini qəbul edəcəyi təqdirdə bolşevik komandanlığı ilə bağlı bir sıra şərtlərin təminatına zəmanət tələb etmişdi.

Həmədana dönən Danstervil Qafqazla əlaqə yaratmaq yolları axtarmaqda idi: "Mən həmişə Xəzər (dənizi) üzərində nəzarətin necə böyük əhəmiyyətə malik olduğunu (demişəm) və bunun həyata keçməsinə dair bir neçə plan hazırlanmışdı" [19]. Bütün planların reallaşmasında limanlara sahiblik nəzərdə tutulduğundan və bütün limanların "bolşeviklərin, cəngəlilərin və tatarların" əlində olduğundan başqa vasitəni Danstervil məqbul saymırdı. Belə ki, Bakıya sahib olmadan hər hansı cəhdin faydasız olduğunu vurğulayırdı. Artıq 1918-ci ilin martından ingilislər L.Biçeraxova Xəzər dənizinə nəzarəti təmin edəcək qüvvə kimi baxır, imkanlarını saf-çürük edir, "Bakı aviatorlarının" köməyini də mümkün sayırdılar. Qeyd edək ki, 87 hidroplanı olan Bakı aviasiya məktəbi ermənilərin sərəncamında idi və bolşeviklərin nəzarəti altında fəaliyyət göstərirdi. Müsəlman qırğını ərəfəsində Bakıdakı hərbi qüvvə təsnifatı ingilis kəşfiyyatı sənədlərində öz əksini tapmışdır.

Ümumiyyətlə, 1918-ci ilin yazından etibarən Bakıdakı vəziyyət haqqında ingilis kəşfiyyatının əhatəli məlumatları Britaniya missiyasının Qafqazda əməkdaşlıq edə biləcək siyasi qüvvələri müəyyənləşdirməyə yardım edirdi. Yaranmış şəraitdə ermənilərin təklifindən yararlanmağı məqbul bilməyən ingilis hərbi kəşfiyyatı ehtiyat etsə də, eyni vaxtda Ənzəliyədək gəlib, ermənilərlə, bolşeviklərlə birgə Xəzər donanması üzərində nəzarəti ələ almağı mümkün

sayırdı. Bakıdakı bolşevik hakimiyyəti ilə Ənzəli bolşevikləri arasında əlaqədə erməni vasitəçiliyi şirnikləndirici görünsə də Bakıda vitse-konsul Ronald Mak - Donellin aparıcı rol oynadığı ingilis kəşfiyyat xidməti Danstervil missiyasının gəlişi üçün zəmin hazırlamaqla məşğul idi. Erməni Milli Şurası ingilis yardımını qəbul etməyə hazır olsa da, bolşevik hakimiyyətinin mövqeyi fərqli idi. İngilislərin Cənubi Qafqazda daşnaklarla müttəfiqliyi qarşılıqlı maraqlara əsaslanırdı. Osmanlı ordusuna qarşı çıxan qüvvələrdən eser və menşeviklər Rusiyadan ayrılmağı rədd etdikləri halda, daşnaklar Cənubi Qafqazın Rusiyadan ayrılıb Britaniya nüfuz dairəsinə keçməsini qəbul edə bilərdilər [20]. Britaniya missiyasının Qafqaza gəlməsinə razılıq verən eserlər (sosial-inqilabçılar) Ənzəliyə, L.Biçeraxovun yanına hazırlıq üçün 200 nəfər göndərmişdilər. L.Biçeraxovun gəlişi isə Qafqazda məhsul yetişən vaxta, iyunun əvvəli üçün nəzərdə tutulmuşdu. Lakin Brest-Litovsk sülh müqaviləsinin imzalanması "Qafqaz tarazlığını yenidən pozdu" [21]. Osmanlı hücumundan qorxan Gürcüstan Almaniyanın himayəsini qəbul etdi. Alman qoşunlarının əlinə keçməmək üçün Britaniya missiyası Tiflisdən Vladiqafqaza köçdü. Vəziyyətin dəyişilməsi ilə Britaniya hökuməti Danstervil missiyasının, o cümlədən Biçeraxovun Qafqaza getməsini təxirə saldı. Osmanlı ordusunun Azərbaycandan keçməsinin qarşısını almaq üçün Britaniyanın hərbi naziri türkləri Həmədanda saxlayıb, Xəzər istiqamətində irəliləməsinə yol verməmək göstərişi verdi. 1918-ci ilin yayı üçün heç olmasa kiçik dəstə ilə belə ingilislərin Xəzər hövzəsinə daxil olmasına hökumət hədsiz əhəmiyyət verirdi. Hətta bir-iki ingilis zabitinin Bakıya göndərilməsi, neft mədənlərinin məhv edilməsi, Xəzər donanmasının ələ keçirilməsi, türklərə qarşı yerli hökumətə yardım göstərilməsi və s. nəzərdə tutulurdu. Danstervil isə bu fikirdə idi ki, 2 ingilis zabitinin Bakıya göndərilməsi heç bir nəticə verməyəcəkdir, Bakı şəhəri "effektli kömək almaq ümidindədir və neft mədənlərini dağıtmağa ehtiyac yoxdur". Bu mövqe reallığa əsaslanırdı. Londondan göstərişlər verildiyi iyun günlərində Osmanlı imperiyası ilə Cənubi Qafqaz respublikaları arasında "Sülh və Dostluq" müqavilələri imzalanmışdı. Azərbaycan hökuməti müqavilənin dördüncü bəndinə istinadən Osmanlı hökumətindən yardım istəmişdi. Bakı XKS isə Gəncə üzərinə yürüş haqqında əmr vermişdi. Məğlubiyyət anında düşmənə qalmasın deyə, neft mədənlərinə od vurmaq əmri bolşeviklərin planına da daxil idi. Vəziyyətin gərginləşdiyini görən ingilislər Bakıdakı konsul Mak-Donellə tam fəaliyyət sərbəstliyi, səlahiyyət hüququ verirlər ki, neft mədənlərinin düşmən əlinə keçməsinə yol verilməsin. Bakıda olan keçmiş çar zabitləri, eserlər, erməni milli Şurası Mak-Donellin iştirakı ilə bolşevik hökumətinə qarşı uğursuz çevriliş planı həyata keçirdilər. Erməni Milli Şurasının nümayəndəsi Ter-Qazarov Danstervillə görüşərək ingilis qoşunlarının yubanmadan Qafqaza daxil olmasını xahiş etdi.

Azərbaycan Cümhuriyyəti bəyan edildikdən sonra Bakının azad edilməsi qarşıda duran əsas məsələ idi. Bakı uğrunda türk-azərbaycanlı hissələrinin bolşeviklərlə mübarizəsi, ingilis - "Sentrokaspi" qüvvələri ilə müharibə müstəvisinə keçdi. İngilislər tərəfindən maliyyələşdirilən L.Biçeraxov nəzərdə tutulmuş plana əsasən Bakı bolşevik hökumətinə hərbi yardımını təklif edir. Qafqaz İslam Ordusunun uğurları qarşısında davam gətirə bilməyən bolşeviklər ingilislərin Bakıya gəlməsi əleyhinə rəsmi qərar qəbul edirlər. Bu qərardan sonra L.Biçeraxov öz dəstəsiylə şimala çəkilir. Cəbhədə vəziyyətin ağırlaşması nəticəsində eser-menşevik və daşnaklar ingilislərin Bakıya dəvət edilməsini zəruri hesab edirlər və müvafiq qətnamə qəbul edilir. İyulun 31-də Bakı XKS səlahiyyətlərindən əl çəkir. Avqustun 1-də qurulan "Sentrokasın diktaturası" hökumətinə eser, menşevik, daşnak və Xəzər hərbi donanması MİK-nin nümayəndələri daxil olur. Hökumət Danstervilə kömək üçün müraciət etdi. İngilislərin ilk dəstəsi polkovnik Stoksun komandanlığı altında avqustun 4-də Bakıya daxil oldu. Avqustun 17-də isə general Danstervil yeni ingilis hərbi hissəsi ilə Bakıya gəlir. Bir neçə ingilis mənbələrində qeyd olunur ki, Danstervilin Bakıdakı hərbçilərinin sayı 1000-dən artıq olmamışdır. İlkin plana görə 350 britaniyalı zabitin göndərilməsi və onların yerlilər hesabına ordu təşkil etməsi nəzərdə tutulmuşdu. Bu plan baş tutmadı və "Sentrokaspi Diktaturası"nın köməyinə göndərilən hərbi ekspedisiya 1000 nəfəri keçmirdi. Belə az qüvvənin köməyə gəlməsi Diktatura hökumətini, xüsusən erməniləri hədsiz təəssüfləndirmişdi. Qafqaz İslam Ordusuna qarşı əsas ingilis qoşununa ümid edənlər tezliklə yanıldılar. General Danstervil türk qoşununa qarşı yerli hökumətin müqavimət göstərəcəyini güman edirdi. O da öz növbəsində yerli hərbi qüvvənin hazırlıq səviyyəsindən, intizamsız, dağınıq, qeyri-peşəkar döyüş qabiliyyətindən narazı qaldı.

Böyük Britaniyanın Bakıda təxminən 40 günlük

missiyası 7 aylıq "hazırlıq" mərhələsindən sonra baş tutsa da qısa vaxtda iflasa uğradı. Hərbi qüvvələr nisbətindən başqa bir sıra şərtlər, o cümlədən Bakı şəhərində ərzaq qıtlığı, maliyyə böhranı, yerli müsəlman əhalinin "erməniləri dəstəkləyən ingilislərə" qeyri-rəğbətli münasibəti (müsəlman qırğınlarından az vaxt keçmişdi), ingilislərin hərb etdiyi Osmanlı dövlətinə rəğbət hissi, hərbi əsirlərin sərgərdan dolaşdığı şəhərdə hərc-mərclik və s. təsirsiz qala bilməzdi. Bununla belə qısa müddətdə ingilislər döyüşdükləri cəbhəyə xeyli neft və neft məhsulları göndərə bildi. Birinci Britaniya missiyası ilə Azərbaycan Cümhuriyyətinin əlaqələri Bakı məsələsində kəsişir. Bu zaman müttəfiq yox, əks cəbhələrdə dayanan dövlətlər olduğundan Danstervil missiyası Azərbaycan Cümhuriyyətinin siyasi tarixində, Azərbaycan-Böyük Britaniya əlaqələrində qeyri-məqbul səciyyələndirir. Tarixə hərəki qayıdış mümkün olmadığından ilk ingilis missiyasının Azərbaycan xalqı üçün mahiyyətini şərtləndirən proseslər kombinasiyasını yalnız təhlil etmək imkanı var. Məxfi ingilis sənədlərinin ətraflı təhlili belə Azərbaycana, [21] azərbaycanlılara qarşı əvvəlcədən formalaşmış qərəzli, mənfi münasibətin olmadığını ortaya qoyur. Əksinə, daima yerli xüsusiyyətləri, psixoloji amilləri ön plana çəkən ənənəvi ingilis diplomatiyası fərqli dövrlərdə, müxtəlif şəxsiyyətləri və rəsmi qaydada belə "ermənilərin təqsiri üzündən" "tatarların" - azərbaycanlıların ingilispərəst mövqeyinə nail olmadıqlarından açıq təəssüflərini bildirmiş, səhvlərini etiraf etmişlər.

Azərbaycan-Britaniya münasibətlərində, xüsusən də Azərbaycan Cümhuriyyətinin siyasi tarixində ikinci ingilis missiyasının önəmli yeri var. Birinci Dünya Müharibəsi alman bloku dövlətlərinin bir-birinin ardınca məğlubiyyəti və barışıq imzalanması ilə başa çatdı. 1918-ci il 30 oktyabr Mudros barışığına görə Osmanlı qüvvələri Azərbaycanı tərk etdi, Britaniya qoşunları yenidən Bakıya gəldi. İkinci ingilis missiyasına general Tomson başçılıq edirdi. Üç silahlı ticarət gəmisinin müşayiəti ilə 17 nəqliyyat gəmisi noyabrın 16-da Ənzəlidən çıxıb noyabrın 17-də Bakı limanına daxil oldu. Mudros barışığından dərhal sonra general Tomsona göstəriş verilmişdi ki, Bakıdakı türk komandanlığının barışıq şərtlərindən xəbərdar olması və Bakını müqavimətsiz təhvil vermək barəsində mövqeyini aydınlaşdırsın. Türk komandanlığı cavabında bildirmişdi ki, Qafqazdan bütün türk qoşunlarının 6 həftə ərzində çıxarılması haqqında əmr almışıq, amma Bakının ingilislər tərəfindən tutulmasına dair heç bir xüsusi göstəriş almamışıq, "Siz gərək Azərbaycan hökuməti ilə əlaqə saxlayasınız". İngilis "D" ordusunun komandanı bunu mümkün saymamış, belə ki, Azərbaycan hökumətinin tanınmadığını bildirmişdi [22]. Gənc Azərbaycan dövləti çətin sınaq qarşısında idi. Yenicə Bakını qaytarmış, dövlət quruculuğu işlərini həyata keçirir, Bakı XKS-nin milliləşdirmə siyasətinin nəticələrini ləğv edir, ərzaq məsələsini qaydaya salmağa çalışırdı. Dövlətçiliyin, istiqlalın itirilmə təhlükəsi gənc dövlət xadimlərini məsuliyyətli, çevik mövqe tutmağa, siyasi iradə, həm də son dərəcə incə diplomatiya nümayiş etdirməyə sövq etdi.

Cənubi Qafqazı nəzarətində saxlayacaq hərbi qüvvənin münasibətini bilə-bilə danışıq aparmaq üçün Ənzəliyə nümayəndə heyəti göndərdi. Tomson tərəfindən qoyulan şərtlər dövlətçilik atributlarından idarəçilik səlahiyyətlərinin məhdudlaşdırılmasınadək bir sıra məsələləri əhatə edirdi. Bakı, neft mədənləri ilə birgə ingilis nəzarətinə keçir, şəhər polisinə ingilis başçılıq edir, türk qoşunları kimi Azərbaycan qoşunları da 17 noyabradək Bakıdan çıxarılmalı idi. Üstəlik Biçeraxovun hərbi hissələri ingilis qoşunları ilə birlikdə Bakıya daxil olurdu. Təskinlik və ümidverici şərtlər isə silahlı ermənilərin Bakıya buraxılmaması, müttəfiq dövlət nümayəndələrinin Azərbaycan hökuməti ilə defakto əlaqələr qurmaq, ən əsası isə Azərbaycanın Paris sülh konfransında milli müqəddəratını təyinetmə məsələsində iştirakına imkan verilməsi idi. Hələ ingilislərin gəlişi ərəfəsində Azərbaycan hökuməti dövlət quruculuğu ilə bağlı hüquqi yöndə tədbirlər həyata keçirirdi. Azərbaycan parlamentinin çağırılması məqsədilə Azərbaycan Müsəlman Milli Şurasının fəaliyyətə başlaması qərara alındı. Azərbaycan bayrağı Osmanlı bayrağından fərqləndiriləcək üçrəngli layihədə təsdiq edildi. Məcburiyyət qarşısında güzəştə gedən Azərbaycan hökumətinin sədri F.Xoyskinin Tomsona teleqramı məzmununa görə taktiki gediş idi. Azərbaycan hökumətinin ərazisində səlahiyyət sahibliyi diqqətə çatdırılır, eyni vaxtda müttəfiqlərə güzəştə gedilir, həm də müttəfiq qoşunlarının üzərinə Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qorumaq öhdəliyi qoyulur, gələcək əməkdaşlıq perspektivi vurğulanırdı [23]. General Tomsonun qısa, lakin qarşılıqlı əməkdaşlıq əminlikli cavabı və Ənzəlidən Bakıya "Azərbaycan Respublikasının prezidenti" ünvanlanması məhz gənc hökumətin ikinci ingilis missiyası

ilə münasibətdə diplomatik nailiyyəti idi.

Azərbaycan əhalisi içərisində ingilis qüvvələrinin gəlişi ilə bağlı daha artıq qayda-qanun yaradılmasına ümid edənlər də vardı. Belə ki, Azərbaycan Cümhuryyəti Bakıya yenicə gəlmiş, hakimiyyətini respublikanın bütün ərazisinə yaya bilməmişdi. Elə ingilis konsuluna üz tutub kömək istəyən müsəlman heyəti Lənkəran qəzasında idi. Bəllidir ki, yalnız 1919-cu ilin sentyabrı üçün Azərbaycan Cümhuryyəti hökuməti cənub bölgəsinə nəzarəti təmin edə bildi. 1918-ci il noyabrın 14-də lənkəranlılar Avetisovun quldur dəstəsinin qarətçi əməllərindən can qurtarmaq üçün ingilis konsuluna müraciət etmişdilər. Müsəlman nümayəndə heyəti ilə Ənzəliyə yola düşən konsul ingilis ordu komandanlığına məsələni çatdıracağına söz vermişdi [24]. Ənzəlidə şərtləşdikləri kimi noyabrın 17-si şəhərə daxil olan general-mayor Tomson 5 bənddən ibarət qərarla Bakı şəhərində hərbi vəziyyət elan edir. Bu müddətdə özü Bakı şəhərinin hərbi qubernatoru, polkovnik F.P. Kokkerel isə polis komissarı təyin edilir. Bakı şəhər idarəsi, digər mülki müəssisələr öz fəaliyyətlərini davam etdirirlər. Tomsonun başçılıq etdiyi müttəfiq qoşunlarını Azərbaycan hökuməti adından daxili işlər naziri Behbud xan Cavanşir və xarici işlər naziri vəzifəsini icra edən Adil xan Ziyadxanov, həmçinin şəhər özünüidarəsinin, neft sənayeçiləri qurultayı şurasının, Rus milli şurasının nümayəndələri və b. qarşılayırlar. Hökumət adından A.Ziyadxanov Tomsonu salamladı. Təbrik müraciətində Azərbaycan xalqının müstəqil hüquqi dövlət qurmaq, Avropa cəmiyyətinə qovuşmaq istəyi və bu yolda müttəfiqlərin köməyinə ehtiyac öz əksini tapmışdı. Tomsonun cavab nitqi artıq Azərbaycan hökumətinə qarşı isti münasibət səciyyəsi daşıyır. Bu, türklərin bölgəni tərk etməsindən yaranmış mürəkkəb şəraitdə Azərbaycan diplomatiyasının uğuru idi. Şəhərə varid olan kimi mövcud qayda-qanundan məmnunluğunu bildirən Tomson belə davam edərsə, onun köməyinə ehtiyac olmayacağını bildirdi.

Tomsonun gəlişinə şəhər əhalisinin hamısı birmənalı münasibət bəsləmirdi. Xüsusən Danstervil missiyasının anti-müsəlman qüvvələrlə müttəfiqliyi təcrübəsindən az vaxt ötmüşdü. Ən çox sevinən Bakıdakı Rus və Erməni Milli Şuralarının tərəfdarları idi. Bu işdə L.Biçeraxovun bəyannamələri, Azərbaycan hökumətini devirmək yönündə apardığı işlər təsirsiz qalmırdı.

Gəlişindən 2 gün sonra Tomson irihəcmli bəyannamə ilə missiyasına açıqlıq gətirdi. “Şimali İranda Böyük Britaniya qoşunlanlarının komandanı” kimi imzaladığı bəyannamə Qafqazın, o cümlədən Bakı rayonunun Rusiyanın bir parçası olduğunu diqqətə çəkirdi. Birinci dünya müharibəsi zamanı rus xalqının müttəfiqlərinə göstərdiyi “böyük köməyi” nəzərə alaraq, Rusiyanın bir parça torpağına belə göz dikmədiklərini, əksinə qayda-qanun yaratmaq məqsədilə müvəqqəti yerləşdiklərini qeyd edirdi.

Təbii ki, Rusiya, rus xalqı ifadələri altında görünən fikirlər missiyanın əsl mahiyyətini əks etdirmirdi. Bəyannaməyə əlavə olaraq 11 bənddən ibarət məcburi qaydaların tətbiqi hərbi vəziyyətin tələblərindən irəli gəlirdi [25]. Konkret qaydaların təsnifatı hərbi və mülki qadağalarla yanaşı siyasi məzmunlu şərtlərin üstünlüyünü üzə çıxarır: türk və alman təbəələrini hökumətə təhvil verənlərə mükafat vədi, hərbi və siyasi xarakterli yanlış məlumat yayanlar üçün cəza, bütün düşmən dövlətlərin - türk, alman, avstriyalı, bolqar təbəələrin ilk gündən etibarən həbsi və s. müttəfiq məmurları ilə yanaşı, rus hökuməti xidmətində olanlara, rus zabitlərinə demək olar ki, eyni səviyyədə səlahiyyət verilməsi, xüsusi - 8-ci bəndlə bütün küçə və ictimai yer adlarının, bütün məlumat və elanların rus dilində olmasının vacibliyi, bir sıra mülki-məişət xarakterli məsələlərin belə hərbi komandanlığa tabe edilməsi Azərbaycan hökumətinin Bakı rayonunda səlahiyyətlərini xeyli məhdudlaşdırdı. Amma istiqlal prinsipindən uzaqlaşmayan, dövlətçilik mənafeyini partiyalar fövqündə qoymağı bacarmış Azərbaycan hökuməti parlamentin təsisi yönündə fəaliyyətini daha da gücləndirdi. Xüsusən köhnə Rusiyanın müttəfiqi kimi çıxış edən Tomsonun “Azərbaycan xalqının ümumi səsverməsinə əsaslanan respublikanın yoxluğunu” əsas gətirməsi Parlament təsisatını zəruri edirdi. Lakin hələ Azərbaycan parlamentinin təşkili haqqında qanun “vahid və bölünməz Rusiya” tərəfdarlarının düşmən münasibətilə qarşılandı. 120 üzvdən ibarət olmalı parlamentdə ermənilərə 21, ruslara 10, yəhudi, alman, gürcü, polyak nümayəndələrinə də yerlər ayrılması rus və erməni milli şuralarını qane etmir, parlamentin işini pozmağa cəhd edirdilər. Rusiyaya münasibətdə onların mövqeyinə yaxın olan Tomson eyni vaxtda hərc-mərcliyin qarşısını almağa çalışırdı. Hər iki şərti nəzərdə tutan yeni bəyannamə ilə çıxış etməyə məcbur oldu. Bir daha Qafqaz əhalisinin diqqətinə çatdırılırdı ki, müttəfiq qoşunlarının Qafqaza göndərilməsinin məqsədi “Qara və Xəzər dənizləri arasın-

da yerləşən bu Rusiya ərazisində” ictimai təhlükəsizliyi təmin etməkdir. Bu əraziyə aid bütün məsələlərin son həllini sülh konfransının həyata keçirəcəyini bildirib yenə də qayda-qanun yaradılmasını missiyasının başlıca məqsədi olduğunu vurğuladı. Həqiqətən general Tomson bu qayəsinə sadiq qalmağa çalışırdı: əhalinin ərzaq təchizatı, kağız pul sisteminin tətbiqi, kredit sisteminin bərpası, ən əsası isə düşmənçilik edən millətlər arasında sülhün bərpasına yönəlmiş tədbirlər görülməsi. Azərbaycan milli hökumətinin varlığı ilə barışmayan Xəzər donanması daha aqressiv mövqe tutmuşdu. Onun tərksilah edilməsinə qərar verilməsi adekvat reaksiya doğurdu. Donanma etiraz edərək reydə çıxıb ingilis qərargahını nişangaha almış, lakin ingilis hərbi-dəniz donanmasının üzvü Norris çevik əməliyyatla Xəzər donanmasını təslim etməyə nail olmuşdu.

Azərbaycan ərazisində talançılıqla, qarətlə məşğul olan, dinc müsəlman əhaliyə divan tutan erməni basqınçılarına qarşı Tomsonun sərt tədbirləri ümumi təhlükəsizlik təminatına xidmət edirdi. Hələ 1918-ci il dekabrın əvvəllərində ermənilərin Gəncə və Qazax qəzalarında törətdiyi özbaşınalıqlardan xəbər tutan Tomson onlara müraciət edərək əməllərinə son qoymağı əmr etmiş, əks təqdirdə baş verəcək qırğınlara görə erməni dəstə başçılarını məsuliyyətə cəlb edəcəyini bildirmişdi [26]. Bu zəmində Azərbaycan hökumətinin müttəfiq missiyası ilə əməkdaşlığı sənədlərdə öz təsdiqini tapır. Hökumət başçısı Fətəli xan Xoyski Tomsona müraciətlə Karyagindən və Cəbrayıldan göndərilmiş iki teleqramla onu tanış etmiş, Andronikin başçılığı ilə erməni quldur dəstələrinin insanlığa sığmaz əməllərini diqqətinə çatdırmışdı. Mak Donell ikinci missiya zamanı qarşılaşdıqları problemlər sırasında “Türkiyə ermənisi general Androniki” göstərir. Andronikin 10 mindən çox hərbçidən ibarət, yaxşı silahlanmış ordu, bir neçə artilleriya batareyası ilə Zəngəzur və Naxçıvana hücum etdiyini, açıq-aşkar heç bir barışığı tanımadığını və “müsəlmanlığı qəbul edənlərin hamısına müharibə elan etdiyini” təsvir etmişdir. [27]. Ronald Mak Donell Tomsonun Bakıda etdiyi kimi, qayda-qanun saxlanması ilə kifayətlənmək siyasətini nümunə göstərərək Londondakı, həmçinin Parisdəki xarici siyasət rəhbərlərini tənqid etmişdir. Onları bir sıra xoşagəlməz mürəkkəb siyasi düyünlər bağlamaqdan həzz aldıqlarına, bu düyünlərin çözülməsini isə başqa xalqlara həvalə etdiklərinə görə ittiham edirdi [28]. Bu dəfə isə İngiltərə Xarici İşlər Nazirliyinin Qafqazda “yaxşı bir düyünü” zəruri hesab etdiyinə açıqlıq gətirmişdir. Belə ki, Bakıya göndərilən ingilis hərbçiləri, zabitləri Hindistanda, yaxud hind komandanlığı altında hazırlanmışdılar, Hindistana rus təhlükəsi ruhunda tərbiyə edildiklərindən bütün ruslara nifrət hissi bəsləyir, Rusiyaya qarşı güclü müsəlman blokuna malik Qafqaz müstəqilliyini dəstəkləyirdilər. Bakı missiyasından az sonra, dekabrın 27-də Salonikidən Britaniya qoşunları Batuma göndərilir. Bu qoşunlara başçılıq edən zabitlərin xarici işlər nazirliyi ilə sıx əlaqədə olması, xristianlara, rus mürtəce hərəkatına rəğbət bəsləməsi Qafqazda ingilislərə qarşı ikili münasibətin formalaşması ilə nəticələndi. Müttəfiqlər arasındakı ixtilaflar tərəflərin hadisələrə münasibətində qarşılıqlı ittihamlarda büruzə verilir. İngilis Mak Donellin 1922-ci ildə tərtib etdiyi, 1917-ci ilin yayından 1921-ci ilin aprelinə qədər Cənubi Qafqazda hadisələrin təsvirinə həsr olunmuş icmalda Britaniyanın Ermənistana göstərdiyi məhdud yardımın əsasən, Ermənistanla qonşuları arasında mübahisəli məsələlərin nizama salınmasından ibarət olduğu bildirilir. Elə həmin müəllifin “Əbədi heç nə yoxdur” memuarında fransız missiyasının İrəvandakı erməniləri dilə tutaraq 9-cu Denikin ordusu kimi Borçalı mübahisəsini həll etmək üçün gürcülər üzərinə hücuma təhrik etdiyini və bu “düyünün” ingilislər tərəfindən çözülməsi qeyd edilir. Bu cür “diplomatik kombinasiyaların” mahiyyətinə bələdlik səviyyəsi Azərbaycan hökumətinin xarici siyasət kursuna ciddi təsir göstərə bilməzdi. Gənc dövlət potensial yox, real imkanından çıxış edirdi. İngiltərə və Fransanın Azərbaycandakı nümayəndələri simasında istiqlalın zərər görməyəcəyi əminliyini parlament iclasında bəyan edərkən F.X.Xoyski hökumətin vəzifəsini sülh konfransında iştirakda və Azərbaycanın vəziyyətini, istəyini olduğu kimi çatdırmaqda görürdü [9]. Məhz Azərbaycan hökumətinin məsuliyyətli, tarazlı siyasəti qısa vaxtda parlament təsisatı, yeni koalisyon hökumətin təşkili ilə müttəfiqlər missiyasının mövqeyində ilkin münasibəti dəyişdirdi. 1918-ci il dekabrın 28-də general-mayor V.M.Tomson bəyannamə verir.

F.X.Xoyskinin sədrliyi altında koalisyon Azərbaycan hökumətinin təşkili ilə əlaqədar müttəfiq komandanlığın Azərbaycan hüdudlarında yeganə yerli qanuni hakimiyyət kimi bu hökumətə tam dəstək verəcəyini bəyan etdi [30]. Azərbaycan parlamentində geniş müzakirə olunan bəyannaməni Azərbaycan respublikasının bütövlüyünün müdafiəsində ilkin

addım, istiqlalının tanınması yolunda əhəmiyyətli sənəd kimi qiymətləndirdilər. Tomsonun fəaliyyətinə Azərbaycan hökumətinin münasibəti 1919cu ilin yanvarında Britaniya hökumətinin Balkanlarda və Qafqazdakı nümayəndəsi C.Milnə Adil xan Ziyadxanovun təbrik sözlərində də təsdiqlənmişdir. Təbii ki, yerli hökumətlə xarici missiya arasında münasibətlər nə qədər yüksək səviyyədə olsa da, dövlət müstəqilliyinin tam həyata keçirilməsi qeyri-məqbuldur. Bakıdakı ingilis hərbi polis rəisi Kokkerellə daxili işlər naziri X.Xasməmmədov arasında səlahiyyət həddinin aydınlaşdırılması məsələsi də bu qəbildəndir [31]. Şəhər əhalisi arasında ingilis əsgərlərinin davranışından narazı qalanlar hökumətə şikayət ərizəsi ilə müraciət etmişdir. Sərxoş əsgərlərin ictimai yerlərdə özbaşınalığından bezən sakinlər ölçü götürmək üçün ingilis rəhbərliyinə müraciət etməyi xahiş edirdilər. İngilis missiyasının şərtlərinə əməl etməyənlər üçün sərt cəza tədbirləri nəzərdə tutulmuşdur. Cənubi Qafqazda ingilis qüvvələrinin baş komandanı general Miln müttəfiq qüvvələrinə düşmənçilik edənlərə, həmçinin dəmir yollarını, körpüləri, telefon xətlərini, su tikililərini, hərbi anbarları dağıdanlara qarşı, hətta ölüm cəzasının nəzərdə tutulduğunu bəyan etdi [32]. Azərbaycan hökumətinin Britaniya qoşunlarına yardım məzmunlu əməkdaşlığı da sənədlərdə təsbit olunmuşdur. Azərbaycan ərazisində hərbi hava bazalarının qurulmasında ingilis aviasiya zabitlərinə kömək üçün Gəncə qubernatoru Rəfibəyov qəza və polis rəislərinə göstəriş vermişdi. Britaniya komandanlığının ehtiyacı üçün dövlət xəzinəsindən 5 milyon rubl verilməsi haqqında Azərbaycan hökumətinin qərarı vardır. Britaniya ordusu üçün rüsum tutulmadan sərbəst mal buraxılması icazəsinin səhəri günü, Britaniya baş ştabı ticarət və sənaye naziri A.Əminova müraciət etdi. İyun ayı ərzində Azərbaycandan Batuma, Britaniya komandanlığı üçün 450 min pud mazut, 150 min pud kerosin, 75 min pud benzin göndərilməsinə icazə istənilirdi. Bütün ticarət gəmiləri sahiblərinə qaytarılsa da, onlar üzərində ingilis nəzarəti qoyulurdu. 1919-cu il iyunun sonu üçün həm ingilis qoşunlarının, həm də onlar üçün yanacaq məhsullarının daşınması ilə bağlı Azərbaycan dəmiryol rəisliyi xeyli kömək göstərmişdi. Azərbaycan hökuməti ilə Tomson arasında müzakirə edilən məsələlərdən vacibi ərazi münaqişəsi ilə bağlı olmuşdur. Mak Donellin memuarında "Türkiyə ermənisi" Dronun tez-tez Naxçıvana və Zəngəzura basqınlar edib, "öz enerjisini müsəlmanları qırmağa yönəltdiyi"ndən bəhs edilir. Bu məzmunda konkret göstəricilərlə çoxsaylı teleqramlar kömək ümidilə Britaniya qoşunları komandanlığına ünvanlanırdı. Britaniya komandanlığının hərbi əməliyyatları dayandırmaq, müsəlmanlara qarşı zorakılığa son qoymaq haqqında səyləri teleqramlarda əksini tapsa da Mak Donellin bəzi etirafları əks təəssürat yaradır: "İngilislər Droya öz köməyini təklif etdilər, amma polkovnik Çardiqni və onun fransız missiyası Dronu fikrindən daşındırdı, ona mənəvi xeyir-dua və məsləhət verdi. Holland fransız polkovniki bütün bu məsələləri həll etməyin ən yaxşı üsulunu qafqazlıların bir-birini məhv etməsində görürdü." Kifayət qədər təcrübəli ingilis kəşfiyyatçısının mülahizələri müəyyən məsələlərə diqqət çəksə də, Qafqazı tərk etdikdən sonra ingilisləri təəssüfləndirən əsas cəhət Qafqaz respublikaları arasında qarşıdurmanı, millətlər arasında düşmənçiliyi aradan qaldırmağa nail ola bilməmələri idi. Müstəqilliyini itirən milli hökumət nümayəndələrinin mühacirətdə yaxınlaşması, hətta birgə hökumət yaratmaq cəhdləri gecikmiş, əməli əhəmiyyətsiz addım kimi səciyyələndirilirdi.

Böyük Britaniyaya bolşevik hökumətinə qarşı dura biləcək güclü Qafqaz lazım idi. Həmin gücü Qafqaz respublikalarında tapa bilməyən ingilislər Denikinə ümid bağladılar. Şimali Qafqazdakı antibolşevik hərəkatı dəstəkləməklə "bolşevizmi rusların əli ilə" yıxmaq istəyirdilər. Denikinin əsas məqsədi Bakının tutulması idi, Bakının, neft mədənlərinin tutulmasını Rusiyanın həyati məsələsi hesab edirdi. Onun hərbi planları ilə Britaniya siyasəti arasında ziddiyyət Denikinin nəzarət etdiyi ərazi ilə qalan hissəni ayıran demarkasiya xəttinin çəkilməsi ilə nəticələndi. Cənubi Qafqaz və bütün Dağıstan Denikinin nəzarətindən kənar ərazi idi. Cənubi Qafqazda Britaniya qüvvələrinin komandanı general-mayor Q.N.Korn hökumət başçısı N.Yusifbəyliyə demarkasiya xətti haqqında xəbər vermiş, Denikin qoşunlarının xətdən cənuba keçməsinə yol verməməsinin tapşırıldığını bildirmişdi. Əvəzində Qafqaz qərargahları bolşevik qüvvələrini təchizatdan çəkindirməli idilər. Əks təqdirdə, Denikinin xətdən şimalda qalması sual altında olurdu.

Denikin ordusunun Qafqaz dağlı xalqlar İttifaqı ərazisinə soxulması, yerli hökuməti hakimiyyətdən əl çəkməyə məcbur etməsi, ərzaq məhsullarını, mal-qaranı müsadirə etməsi və s. Azərbaycan hökumətini qəzəbləndirmiş, sədr F.x.Xoyski V.M.

Tomsona nota ilə müraciət edib Denikinin təcavüzkarlığına qarşı qəti tədbirlər görməyi xahiş etmişdi. Demarkasiya xəttinə məhəl qoymayan Denikin qələbə çaldıqca irəliləyirdi. Londondan verilmiş təlimata görə general Tomson 1919-cu ilin iyununda demarkasiya xəttini bir az da cənuba keçirdi. Denikinin uğurları ingilisləri bolşeviklər üzərində qələbəyə inandırırdı. 1919-cu ilin avqustunda bölgəni tərk edən ingilislər Xəzər donanması gəmilərini Denikinə verməyi qərara aldılar. Tomson xarici işlər naziri M.Y.Cəfərova 6 avqust 1919-cu il məktubunda bildirir ki, "Britaniya Xəzər donanması bolşeviklərlə mübarizə üçün yaradılmışdır. Bu siyasəti davam etdirərək, getməyimiz qərarlaşdırıldığı halda, Britaniya hökuməti bu gəmilərin general Denikinə verilməsini əmr etmişdi" [33]. İngilislərin Qafqazı tərk etmələri haqqında əmr missiya nümayəndələri tərəfindən mənfi qiymətləndirilir. Fəaliyyətlərinin böyük zərbə aldığını deyirdilər. Lakin qərar qəti idi. Hələ avqustun əvvəlində Böyük Britaniya hökuməti Qafqazın hərbi istilasına çəkilən xərcin bir hissəsini ABŞ-nin öz üzərinə götürməsini təklif etdi. ABŞ hökuməti imtina etmişdi. 1919-cu il avqustun 28-də Britaniya qoşunları Cənubi Qafqazdan çıxarıldı. Kiçik bir qarnizon Batumda saxlanıldı ki, qayda-qanunu qorusun və Denikinlə respublikalar arasında limana sahiblik üstündə yarana biləcək ixtilafların qarşısını dərhal ala bilsin.

Sentyabrın 28-də Cənubi Qafqaz respublikalarında Britaniya diplomatik missiyasının başçısı O.Uordrop Bakıya gəlir. Britaniya maraqlarını təmin etməli O.Uordrop Qafqaz respublikalarına mənəvi dayaq olmalı, onlara məsləhətlər verməli, Denikinlə respublikalar arasında və respublikalararası hərbi qarşıdurmanı aradan qaldırmalı idi. O.Uordropun dövründə də Bakı neftinin daşınması davam edirdi. Azərbaycan hökuməti ingilis komandanlığı tərəfindən Bakı neftinə sərəncam vermək səviyyəsində istismarından narazılığını bildirərək 1919-cu il noyabrın 15-də "təcili" göndərilən məktubunda deyirdi: "Müttəfiq qoşunlarının Azərbaycanda və Gürcüstanda olduğu müddətdə ingilis komandanlığının tələbi ilə neft borusu demək olar ki, yalnız komandanlığın ehtiyacı üçün işləmişdir.../Neftin/ çox az bir hissəsi hökumət və xüsusi ehtiyaclar, o cümlədən neft sənayesinin ehtiyacı üçün sərf edilmişdir" [34].

İngilis qoşunlarının getməsindən sonra hökumət ölkənin maliyyə vəziyyətini yaxşılaşdırmaq, sənayeni ağır vəziyyətdən çıxartmaq üçün neft məhsullarının xaricə ixracı planını işləyib hazırlamışdı. Artıq Qafqazda az sayda ingilis qoşunu qaldığından və onlar tərəfdən neft tələbi ilə bağlı müraciət olmayacağına ümid edilirdi. Lakin 1919-cu ilin oktyabrında general Brefin tələbi hökumət üçün gözlənilməz oldu. General ingilis komandanlığı üçün gündəlik 30 sistern neft məhsulları, bundan əlavə neft borusu ilə 750 min pud neft vurulmasını tələb edirdi. İqtisadiyyatı böhran vəziyyətində olan dövlət üçün bu tələb çıxılmaz vəziyyət yaratmışdı. Hələ 1919-cu ilin iyununda H.Z.Tağıyev sənayenin, maliyyənin ağır vəziyyəti haqqında hökumət başçısı N.Yusifbəyliyə irihəcmli məlumat göndərmiş, çıxış yolları göstərmiş və mal buraxılmasının "hərbi məqsədlər üçün" nəzərdə tutulmadığını qeyd etmişdir. Azərbaycan hökumətinin etirafına görə ixracatın olmaması, neft sənayesini maliyyələşdirmək üçün hökumətin hər ay xeyli məbləğdə kağız pul buraxması, pul nişanlarının dəyərdən düşməsi və sair səbəblərdən iqtisadiyyat ağır durumda idi. Maksimum səylə hər gün 40-45 sistern neft göndərilməsi mümkün olduğu halda onun 30 sisternini ingilis komandanlığına verməklə ən vacib ehtiyacları ödəmək imkan xaricində idi. Bununla belə hökumətin gündəlik 15 sisternə razılıq verməsi ingilis komandanlığını qane etməmiş, boru ilə neft vurulmasına maneçilik törədilmişdi. Xarici işlər naziri M.Y.Cəfərov Cənubi Qafqazdakı Britaniya ali komissarına məktubunda ingilis komandanlığının müxtəlif rütbəli nümayəndələri tərəfindən Azərbaycan və Gürcüstan respublikalarının məruz qaldığı ziyanın gündəlik göstəricisinin bir neçə milyon rubl təşkil etdiyini nəzərə çatdırmış, nəticədə ölkə sənayesi və maliyyəsinin məhvə məhkumluğunu bildirmişdi [35]. Tərəflər arasında aparılan danışıqlar nəticəsində 1920-ci il yanvarın 26-da Azərbaycan respublikasının ticarət, sənaye və ərzaq naziri X.Məlikaslanovla Britaniya neft idarəsinin Batumdakı nümayəndəsi mayor İ.A.Rul arasında neftin satışı üzrə saziş imzalanır [36].

1920-ci ilin yazında Azərbaycan ərazisinə qarşı erməni təcavüzkarlığının güclənməsi Azərbaycan hökumətinin Britaniya ali komissarlığına müraciətlərinə səbəb olur. Müstəqillikləri defakto tanınmış respublikalar arasındakı gərginlik ingilis komandanlığını narahat edirdi. Zəngəzurda ermənilərin artilleriya tətbiq etməsi nəticəsində müsəlmanların dəhşətli qırğına məruz qalması, 24 kəndin məhv edilməsi Azərbaycanda hiddətlə qarşılanmış, O.Uordrop Ermənistan hökumətinin başçısına teleqrafla, hücumu dayandır-

mağı və qoşunları çıxartmağı əmr etmiş, əməl edilməzsə Britaniya hökumətinə Ermənistana kömək göstərməyi tövsiyə etməyəcəyi ilə hədələmişdi. Lakin Azərbaycan respublikasının süqutunadək, ondan sonra da erməni hücumları mütəmadi olaraq davam etmişdi. Xüsusən 1920-ci ilin martında ermənilərin Qarabağda Azərbaycan hərbi hissələrinə hücumu, zorakılıq törətmələri xarici təhlükə qarşısında olan gənc Azərbaycan dövlətini ağır vəziyyətə salmışdı. Xarici işlər naziri F.X.Xoyskinin Britaniyanın, Fransanın ali komissarlarına və polkovnik Qabbaya müraciəti Qarabağdakı vəziyyəti qaydaya salmaq məqsədi daşıyırdı. Bu hadisədən az əvvəl, martın 5-də O.Uordrop F.X.Xoyskidən Azərbaycan hökumətinin ərazi tələbləri haqqında ətraflı məlumat hazırlamağı xahiş etmişdi. Britaniya hökuməti 3 Cənubi Qafqaz respublikası arasında istər iqtisadi, istərsə də siyasi cəhətdən ən sıx münasibətin olmasının birbaşa onların mənafeyinə xidmət etdiyini vurğulayırdı. Üç dövlət arasında sərhəd müəyyənləşdirilməsi məqsədilə xüsusi konfrans çağırılması nəzərdə tutulmuşdu. Qeyd etmək lazımdır ki, Brtaniyanın Qafqazda güclü federasiya yaratmaq istəyi ilə Azərbaycan hökumətinin mövqeyi üst-üstə düşürdü. F.x.Xoyski 5 aprel 1920-ci il teleqramında “Zaqafqaziya respublikaları konfederasiyası təşəbbüsünün Azərbaycan hökumətinə məxsus olduğunu və bu məqsədlə, yaxın günlərdə Tiflisdə yeni konfrans çağırıldığını” yazırdı. Həsən bəy Ağayevin sədrliyi ilə nümayəndə heyətinin iştirak etdiyi bu konfransın Tiflisdə keçirildiyi vaxtda Azərbaycan respublikası XI sovet ordusu tərəfindən hücuma məruz qalır və Azərbaycan Cümhuriyyəti süqut edir.

Azərbaycan Cümhuriyyəti tarixi Böyük Britaniya ilə sıx bağlıdır. Xüsusən ikinci missiya zamanı qarşılıqlı münasibətlər, bilavasitə Azərbaycan dövlətçiliyinə kömək edən, stabil fəaliyyətə imkan yaradan, qonşularla əlaqələrin tənzimlənməsinə yönəldilən tədbirlər və ən başlıcası respublikanın ərazi bütövlüyünün qorunmasında xidmətləri (Denikin təhlükəsinin dayandırılması, Qarabağ məsələsində general Tomsonun mövqeyi) Azərbaycanı Böyük Britaniya ilə birləşdirən tarixdir. Azərbaycan Cümhuriyyətinin Paris sülh konfransında tanınmasında da Böyük Britaniyanın xüsusi rolu var. Bu baxımdan, Cənubi Qafqaz respublikalarının, o cümlədən Azərbaycan Cümhuryyətinin təşəkkülündə Britaniyanın rolunu məqbul sayan, obyektiv dəyərləndirən azərbaycanlı xadimlərimizlə yanaşı, britaniyalıların tarixi deyimləri də yaddan çıxmayıbdır: “Britaniya ordusunda bütün qulluq edənlər Azərbaycanda olduqları günlər haqqında ən xoş xatirələri özləri ilə aparırlar (general Şatelvort)” [37].

Böyük Britaniya qoşunlarının Qafqazı tərk etməsi Azərbaycan hökumətini də narahat edirdi. Güclü bir xarici qüvvəyə istinad baxımından gənc dövlətin təşvişi anlaşılandır. Amma bu o məqam da sayıla bilər ki, Bakıya daxil olanda general Tomson “ona ehtiyac olmayacaq” zamanı da istisna etməmişdi. Hələ 1918-ci ilin sonlarından ingilislər Bakıda tətbiq etdikləri qadağaları tədricən götürdülər, bir sıra sahələrdə nəzarəti ləğv etdilər, 1919-cu ilin aprelində Bakıda ingilis general-qubernatorluğu ləğv edildi, Azərbaycan alayının Gəncədən Bakıya gəlişi təntənə ilə qeyd edildi. Yəni, Azərbaycan hökuməti həm varlığını qorudu, dövlət idarəçiliyini öz əlində saxlamağa nail oldu, həm də ingilis komandanlığı başda general Tomson olmaqla Azərbaycan hökumətinin səylərinə, müvafiq əməkdaşlığa üstünlük verdi. Ən yüksək əməkdaşlıq mahiyyətində belə dövlət ərazisində xarici qüvvənin mövcudluğu istiqlal üçün məqbul sayılmaz. Bu baxımdan ingilis qoşunlarının Qafqazı tərk etməsindən sonra Azərbaycan hökumətinin sədri Nəsib Yusifbəylinin parlamentdə “Əfəndilər! Dövlətin bu gündən etibarən tam istiqlaliyyətə yetməsi münasibətilə sizi təbrik edirəm” xitabı [38] reallıqdan irəli gəlmiş və Azərbaycan hökumətinin önəm verdiyi dəyərlərə söykənirdi.

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Rusiya Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun arxivi (REA ŞİA), , Г-E 8378/8378/56*

*2. Сталин И.В. Сочинения, т.4. с.408*

*3. REA ŞİA , A-165, v.21*

*4. Yenə orada*

*5. Бертран Рассел. Практика и теория большевизма, Москва, 1991, с.64.*

*6. Кейес "Болшевизм и помощь Великобритании анти-большевистским силам на юге России". с.2; REA ŞİA, A-165, v.21*

*7. REA ŞİA, A-35, v.4*

*8. Юсифзаде С.З. Первая Азербайджанская Республика: история, события, факты англо-азербайджанских отношений, Баку, 1998, с.35*

*9. Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), Bakı, 1993, s.35*

*10. REA ŞİA, A-35, N115, v.61*

*11. Yenə orada*

*12. Yenə orada, Q-E 8378/8378/56*

*13. REA ŞİA, A-35, N127, v.67*
*14. Qasımlı M., İsmayılov S., Böyük Britaniyanın Azərbaycan siyasəti (1917-ci il noyabr - 1918-ci il sentyabr), «525-ci qəzet», 24 avqust 2002*
*15. Yusifzadə S.Z., Göstərilən əsəri, s.41*
*16. Кейес. Указ. работа*
*17. Qasımlı M., İsmayılov S., Göstərilən məqalə*
*18. История дипломатии, т.II, М.-л., 1945, с.348*
*19. REA ŞİA, A-37, N152, v.76*
*20. Yusifzadə S.Z. Göstərilən əsəri, s.43*
*21. Рональд Мак Донелл. Ничто не вечно, пер. с англ. рукопись ФПД МИА, инв. N1630, л.200*
*22. REA ŞİA, A-41, N80*
*23. Азербайджанская Республика. Документы и материалы. 1918-1920 гг., Баку, 1998, с.64*
*24. Азербайджан, 1918, 17 ноября*
*25. ARDA, f.2767, s.1, iş 470, v.16*
*26. Азербайджан, 1918, 3 декабря*
*27. Рональд Мак Донелл. Указ. раб. с.278-279*
*28. Yenə orada, s.277*
*29. Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика (Документы и материалы), Баку, 1998, 111*
*30. AMEA MATM, YSF, inv. N2143*
*31. ARDA, f.894, s.1, iş 54, v.8-10*
*32. Азербайджан, 1919, 9 мая*
*33. Азербайджанская Республика. Документы и материалы. 1918-1920 гг. Баку, 1998, с.277*
*34. ARDA, f. 970, s.1. iş 198, v.1*
*35. Yenə orada*
*36. ARDA, f.894, s.10, iş 35, v.34, 43*
*37. Джамил Гасанли, Нигяр Максвелл. Как английские войска покидали Баку. "Зеркало", 2002, 11 мая*
*38. Nəsibzadə N., Azərbaycan Demokratik Respublikası, Bakı, 1990, s.17*

**Ахмедова Фирдовсия Фирдовси кызы**
***заведующая кафедрой «История» Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по истории, доцент, заслуженный учитель***

**Миссия Великобритании в Азербайджане (Британский фактор в судьбе Азербайджанской Республики)**

**РЕЗЮМЕ**

Задолго до установления отношений Азербайджанской Республики с Великобританией Кавказ, особенно Баку, занимал важное место в британской политике. Геостратегическое и геоэкономическое значение Южного Кавказа было подробно зафиксировано в британских документах. Начиная с весны 1918 года, обширная информация британской разведки о ситуации в Баку способствовала определению политических сил на Кавказе, с которыми британская миссия могла сотрудничать.

После провозглашения Азербайджанской Республики борьба турецко-азербайджанских частей с большевиками за Баку переросла в военное противостояние с британскими силами «Сентрокаспий». Отношения между первой британской миссией и Азербайджанской Республикой пересекались именно в вопросе Баку. Поскольку в тот период государства находились не в союзнических, а в противоположных лагерях, миссия Данстервиля в политической истории Азербайджанской Республики и в азербайджано-британских отношениях характеризуется как неприемлемая.

История Азербайджанской Республики тесно связана с Великобританией. Особенно во время второй миссии сложились взаимные отношения, которые способствовали укреплению азербайджанской государственности, созданию условий для стабильной деятельности, регулированию отношений с соседними государствами и, главное, защите территориальной целостности республики (предотвращение угрозы Деникина, позиция генерала Томсона по карабахскому вопросу). Эти события являются общей историей, объединяющей Азербайджан и Великобританию.

В признании Азербайджанской Республики

на Парижской мирной конференции Великобритания сыграла особую роль. Сотрудничество правительства Азербайджана с союзнической миссией нашло свое подтверждение в документах. Правительство Азербайджана разрешило отправку в Батум для британского командования 450 тысяч пудов мазута, 150 тысяч пудов керосина и 75 тысяч пудов бензина. Хотя все торговые суда были возвращены их владельцам, над ними был установлен британский контроль.

Правительство Великобритании подчеркивало, что самые тесные экономические и политические отношения между тремя южнокавказскими республиками непосредственно служат их интересам. Великобритании был необходим сильный Кавказ, способный противостоять большевистскому правительству. Стремление Великобритании создать сильную федерацию на Кавказе совпадало с позицией правительства Азербайджана.

**Ключевые слова:** *Кавказ, Великобритания, Азербайджан, британская разведка, Томсон, Макдонелл.*

**Akhmedova Firdovsiya Firdovsi gizi**
***Head of the Department of History at the Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Doctor of Philosophy (PhD) in History, Associate Professor, Honored Teacher***

## The British Mission in Azerbaijan (The British Factor in the Fate of the Azerbaijan Republic)

### ABSTRACT

Long before the establishment of relations between the Azerbaijan Republic and Great Britain, the Caucasus—particularly Baku—occupied an important place in British policy. The geostrategic and geo-economic significance of the South Caucasus was thoroughly documented in British records. Beginning in the spring of 1918, extensive information provided by British intelligence regarding the situation in Baku helped determine the political forces in the Caucasus with which the British mission could cooperate.

After the proclamation of the Azerbaijan Republic, the struggle of Turkish-Azerbaijani units against the Bolsheviks for control of Baku evolved into a military confrontation with the British "Centro-Caspian" forces. Relations between the first British mission and the Azerbaijan Republic intersected primarily over the Baku issue. Since the two sides were positioned not as allies but on opposing fronts at that time, the Dunsterville mission is characterized as unacceptable in the political history of the Azerbaijan Republic and in Azerbaijani–British relations.

The history of the Azerbaijan Republic is closely connected with Great Britain. Particularly during the second mission, mutual relations developed that directly contributed to the strengthening of Azerbaijani statehood, created conditions for stable governance, facilitated the regulation of relations with neighboring states, and most importantly served to protect the territorial integrity of the republic (the prevention of the Denikin threat and General Thomson's position on the Karabakh issue). These events constitute a shared history linking Azerbaijan and Great Britain.

Great Britain also played a special role in the recognition of the Azerbaijan Republic at the Paris Peace Conference. The cooperation of the Azerbaijani government with the Allied mission is confirmed in official documents. The Azerbaijani government permitted the dispatch of 450,000 poods of fuel oil, 150,000 poods of kerosene, and 75,000 poods of gasoline from Azerbaijan to Batumi for the British command. Although all merchant vessels were returned to their owners, British control was imposed over them.

The British government emphasized that the closest possible economic and political relations among the three South Caucasian republics directly served their interests. Great Britain needed a strong Caucasus capable of resisting the Bolshevik government. Britain's desire to establish a strong federation in the Caucasus coincided with the position of the Azerbaijani government.

**Keywords:** *Caucasus, Great Britain, Azerbaijan, British intelligence, Thomson, MacDonnell.*

*Rəyçi: Tarix elmləri doktoru, professor Həvva Məmmədova*
*Məqalə redaksiyaya daxil olub: 01.11.2025*
*Çapa qəbul olunub: 17.12.2025*

*The date of the admission of the article to the editorial office: 01.11.2025*
*Accepted for publication: 17.12.2025*